# AZƏRBAYCAN VETERANI

AZƏRBAYCAN VETERANLAR TƏŞKİLATI

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının orqanı

14 (66) 02 oktyabr 2016-cı il İctimai-siyasi qəzet


## İlham Əliyev V Beynəlxalq Humanitar Forumun rəsmi açılış mərasimində iştirak edib

Heydər Əliyev Mərkəzində V Bakı Beynəlxalq Humanitar Forumu işə başlayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Forumun rəsmi açılış mərasimində iştirak ediblər.

Bakı Beynəlxalq Humanitar Forumu bəşəriyyətdə maraq doğuran qlobal xarakterli məsələlərə dair geniş spektrli dialoqlar, fikir mübadilələri və müzakirələr aparmaq məqsədilə tanınmış dövlət xadimlərini, elmin müxtəlif sahələri üzrə Nobel mükafatı laureatlarını və nüfuzlu beynəlxalq təşkilatların rəhbərlərini, o cümlədən dünyanın siyasi, elmi və mədəni elitasının görkəmli nümayəndələrini bir araya toplayan mötəbər tədbirdir. Forum təşkilatçılarının və iştirakçılarının, təbii, sosial və humanitar elmlər, o cümlədən dünya mədəni elitasının nümayəndələrinin qarşısında duran iddialı məsələ gələcəkdə beynəlxalq səviyyədə baxılması məqsədilə yeni humanitar gündəmin formalaşmasıdır.

Dövlət başçısı Forumun açılışında nitq söylədi.

Sonra Rusiya Federasiyası Hökuməti sədrinin müavini xanım Olqa Qolodets Rusiya Prezidenti Vladimir Putinin Forum iştirakçılarına müraciətini oxudu və çıxış edərək tədbirin əhəmiyyətini yüksək qiymətləndirdi.

BMT baş katibinin müavini xanım Cihan Sultanoğlu təşkilatın baş katibi Pan Gi Munun Forum iştirakçılarına müraciətini oxudu.

Sonra ISESCO-nun baş direktoru Əbdüləziz Osman əl-Tuveycri və




UNESCO-nun baş direktorunun müavini Qetaçyu Enqida çıxış etdilər.

Forum işini plenar iclasla və "dəyirmi masa" rəhbərlərinin çıxışları ilə davam etdirir.

## Bakı Ekspo Mərkəzində "ADEX 2016" ikinci Azərbaycan Beynəlxalq müdafiə sərgisi açılıb



### *Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev sərgi ilə tanış olub.*

Müdafiə sənayesi naziri Yavər Camalov və Müdafiə naziri Zakir Həsənov Prezident İlham Əliyevə məlumat verdilər ki, bu il sərgidə dünyanın 34 ölkəsini təmsil edən 216 şirkət, 19 ölkədən 25 rəsmi nümayəndə heyəti iştirak edir. İştirakçıların coğrafiyası Latviya, Monteneqro, Xorvatiya, Çex Respublikası və Estoniya kimi ölkələrin hesabına genişlənib. Ümumilikdə, ziyarətçi şirkət və qurumlarla birlikdə sərginin coğrafiyası 44 ölkəni əhatə edir.

Dövlətimizin başçısı Azərbaycan pavilyonunda nümayiş etdirilən hərbi məmulatlara baxdı. Bu sərgidə milli müdafiə sənayesinin məmulatlarının nümayiş etdirilməsi bir daha təsdiqləyir ki, Müdafiə Sənayesi Nazirliyinin tabeliyinə verilən müəssislərdə qısa müddətdə yenidənqurma işlərinin aparılması, son illərdə həmin müəssisələrin maşın və avadanlıq parkının yenilənməsi məqsədilə dünyanın inkişaf etmiş ölkələrindən ən son texnoloji avadanlıqların alınıb quraşdırılması artıq öz bəhrəsini verir. Görülən işlərin nəticəsidir ki, Müdafiə Sənayesi Nazirliyi aviasiya, naviqasiya, cihazqayırma və digər istiqamətlər üzrə dünyanın inkişaf etmiş ölkələri ilə əməkdaşlıq edir. 2009-cu ildən başlayaraq nazirliyin müəssisələrində istehsal olunan məhsullar xaricdə keçirilən beynəlxalq müdafiə sərgilərində də nümayiş olunur. Bu sərgilərdə Azərbaycan istehsalı olan məhsullar böyük maraqla qarşılanır.

İkinci dəfə keçirilən sərgidə Türkiyə Respublikası 42 şirkətlə təmsil olunur. Türkiyənin 28 illik təcrübəyə malik olan "Roketsan" şirkəti budəfəki sərgiyə öz məhsullarının geniş çeşidi ilə qatılıb. Şirkət həm yerli, həm də xarici istifadəçilərə özünü təcrübədə doğrultmuş etibarlı həll variantları təklif edir. "Aselsan" şirkəti sifarişçilərinə hərbi rabitə vasitələri, radiolokasiya stansiyaları, radioelektron mübarizə avadanlığı, elektron və optik cihazlar, çoxfunksiyalı məlumat idarəetmə sistemi, yerüstü, hava, dəniz və kosmik tətbiqlər üçün yüksək texnologiyalı sistem variantlarını təqdim edir.



Sonra Prezident İlham Əliyev Bakı Ekspo Mərkəzinin qarşısında açıq havada nümayiş etdirilən hərbi məhsullara da baxdı. Azərbaycan hərbi sənaye kompleksinin məhsulları burada da qonaqlara təqdim olunur. Bildirildi ki, "Matador" və "Marauder" tipli zirehli hərbi texnikalar, o cümlədən tank əleyhinə raket kompleksi sərgidə yenə də böyük maraqla qarşılanır. Bundan əlavə, Rusiya və Belarus istehsalı olan ağır hərbi texnikalar sərginin əhəmiyyətini daha da artırır.

Beləliklə, "ADEX" sərgisi dünyanın silah bazarında ixrac üçün təklif olunan hərbi sənaye kompleksinin müxtəlif sahələri üzrə müasir müdafiə texnologiyaları, hərbi texnikanın ən son nümunələri ilə tanış olmaq imkanı yaradır. Bu sərgi ən son silah nümunələrinin nümayiş olunması və beynəlxalq hərbi-texniki əməkdaşlıq sahəsində yeni müqavilələrin imzalanması üçün də əla platformaya çevrilib.

# Respublika Veteranlar Təşkilatı beynəlxalq əlaqələrini gücləndirir



Rusiya Federasiyasının Silahlı Qüvvələri Veteranları Ümumrusiya İctimai Təşkilatı Şurasının sədri Viktor Yermakov Respublika Veteranlar Təşkilatında olmuşdur. Respublika Veteranlar Təşkilatının sədri e.o general-mayor Dadaş Rzayev qonağı təşkilatın inzibati binası ilə tanış etmiş, ölkəmizdə veteranlara göstərilən diqqət və qayğıdan danışmışdır.

Rusiya Federasiyasının Silahlı Qüvvələri Veteranları Ümumrusiya İctimai Təşkilatı Şurasının sədri Viktor Yermakov Azərbaycanda Veteranlara göstərilən diqqətin çox yüksək səviyyədə olduğunu bildirdi.

Daha sonra hər iki respublika veteranlar təşkilatları arasında əlaqələrin gücləndirilməsinin vacibliyi vurğulandı. Yaxın gələcəkdə qarşılıqlı əlaqələrin daha da dərinləşməsi üçün lazımı tədbirlərin həyata keçirilməsinin vacibliyi önə çəkildi.

Həmçinin, Azərbaycan Respublikası Milli Məclisinin komitə sədri, Yeni Azərbaycan Partiyası İcra katibinin müavini Siyavuş Novruzov Rusiya Federasiyasının Silahlı Qüvvələri Veteranları Ümumrusiya İctimai Təşkilatı Şurasının sədri Viktor Yermakovla görüşmüşdür. Siyavuş Novruzov Rusiya Federasiyasının "Ölkə müdafiəsinin möhkəmlənməsinə verdiyi böyük xidmətə görə" ordeni ilə təltif olunub.



Bakıda keçirilən təltifetmə mərasimində Rusiya Federasiyasının Silahlı Qüvvələri Veteranları Ümumrusiya İctimai Təşkilatı Şurasının sədri, ordu generalı Viktor Yermakov, Azərbaycan Respublikası Veteranlar Şurasının sədri, general-mayor Dadaş Rzayev, Milli Məclisin deputatları, Əfqanıstan və Qarabağ veteranları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

# Lənkəran Sərhəd Dəstəsində hərbi - vətənpərvərlik mövzusunda tədbir keçirilib

***Sentyabrın 20-də Dövlət Sərhəd Xidmətinin (DSX) Lənkəran Sərhəd Dəstəsində Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının təşkilatçılığı ilə hərbi-vətənpərvərlik mövzusunda tədbir keçirilmişdir.***

Tədbirin keçirilməsində məqsəd gənc sərhədçilər arasında hərbi-vətənpərvərlik tərbiyəsinin səviyyəsinin yüksəldilməsi, onlarda Vətənə, xalqa məhəbbət, dövlət sərhədlərinin qorunmasında məsuliyyət hisslərinin gücləndirilməsi, sərhədçi peşəsinə rəğbətin artırılmasıdır.

Tədbirdə çıxış edən Respublika Veteranları Təşkilatının sədr müavini, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dosenti, ehtiyatda olan polkovnik Cəlil Xəlilov ölkəmizdə ordu quruculuğu sahəsində qazanılmış uğurlardan, Azərbaycanın Sərhəd Qoşunlarının inkişaf etmiş ölkələrin eyni qoşun növləri ilə bir sırada dayanmasından, sərhədçilərin şərəfli və məsuliyyətli işindən danışıb.

BMT-nin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul etdiyi 4 qətnamənin hələ də icra olunmadığını təəssüf hissi ilə qeyd edən C.Xəlilov Azərbaycanın güclü orduya malik olduğunun bu ilin aprel hadisələri zamanı bir daha öz təsdiqini tapdığı, Silahlı Qüvvələrimizin düşmən tapdağı altındakı torpaqlarımızın azad olunması üçün Ali Baş Komandan İlham Əliyevin əmrini gözlədiyini vurğulayıb.

Azərbaycanın həmişə tolerant ölkə olduğunu, burada yaşayan müxtəlif millətlərin nümayəndələrinin əmin-amanlıq şəraitində yaşadıqlarını vurğulayan C.Xəlilov ötən əsrin 90-cı illərində bu tolerantlıq mühitindən sui-istifadə edən erməni separatçılarının xəyanət yolunu seçdiklərini diqqətə çatdırıb. O, həmçinin yüksək mənəvi-əxlaqi dəyərlərə daim sadiq qalan Azərbaycan xalqının mövcud münaqişəni sülh yolu ilə həll etməyə çalışmasının dünyaya daha bir nümunə olduğunu qeyd edib.

C.Xəlilov daha sonra hərbi-vətənpərvərlik mövzusunun Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının fəaliyyətində həmişə prioritet istiqamətlərdən olduğunu bildirərək, müqəddəs Vətən sərhədlərinin qorunması sahəsində qarşıda duran vəzifələrin layiqincə yerinə yetirilməsinin xidməti işlə yanaşı, həmçinin yüksək vətənpərvərlik nümunəsi olduğunu diqqətə çatdırıb.





Tədbirdə Gənclər üçün Təhsil Mərkəzinin direktoru Fəxrəddin Həsənzadə və Lənkəran Dövlət Universitetinin dosenti, tarix elmləri namizədi Rakif İbadov mövzu ilə bağlı çıxış ediblər. Hər iki çıxışçı zlbgənclərin hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunmalarının əhəmiyyətindən, bu sahədə təhsil ocaqlarının üzərinə düşən vəzifələrdən, sərhədçi peşəsinin şərəfli və məsuliyyətli olmasından danışmış, gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulamışlar.

Tədbirin sonunda ehtiyatda olan polkovnik Cəlil Xəlilov Lənkəran Sərhəd Dəstəsinin hərbi xidmətdə fərqlənən sərhədçilərindən bir qrupuna Respublika Veteranlar Təşkilatı Rəyasət Heyətinin qərarı ilə təltif olunduqları "General Cəmşid Naxçıvanski" yubiley medallarını təqdim etmiş və özünün müəllifi olduğu "Milli Təhlükəsizlik Strategiyası" kitabını hərbi hissənin kitabxanasına hədiyyə etmişdir.

# Ölkəmizdə referendum baş tutdu



Sentyabrın 26-da səhər saat 8:00-da Azərbaycan Respublikasının Konstitusiyasına təklif olunan əlavə və dəyişikliklərlə bağlı ümumxalq səsverməsi (referendum) başlayıb. Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov "Seçkilər" İnformasiya Mərkəzində keçirdiyi mətbuat konfransında jurnalistlərə Azərbaycanda keçirilən referendum barədə məlumat verib. Diqqətə çatdırıb ki, ümumxalq səsverməsində iştirakı gözlənilən 5 milyon 300 minə yaxın vətəndaşın səs verməsi üçün 5 min 627 məntəqədə hər cür şərait yaradılıb. Bütün məntəqələr müşahidəçilər və kütləvi informasiya vasitələrinin nümayəndələri üçün açıqdır. Səsverməni 33 ölkədən 117 beynəlxalq müşahidəçi izləyəcək. Səsverməni ümumlikdə 53 mindən çox müşahidəçi izləyəcək. M.Pənahov qeyd edib ki, Azərbaycan seçicilərinin konstitusion haqlarını yerinə yetirilmələri üçün bütün imkanlar yaradılıb. MSK sədi seçicilərə, o cümlədən sosial şəbəkə istifadəçilərinə müraciət edib. Onları hər hansı qanun pozuntusu ilə rastlaşdıqları halda, MSK-ya müraciət etməyə çağırıb: "Referendumun yüksək səviyyədə həyata keçirilməsi üçün dairə və məntəqə seçki komissiyaları öz vəzifələrini layiqincə yerinə yetirəcək. Bütün arzu edilən və mümkün olan variantlardan istifadə olunub ki, həm seçicilər, həm də müşahidəçilər bu referendumun necə şəffaf keçirilməsinin şahidi olsunlar". Azərbaycanın dövlət himni səsləndirildikdən sonra ümumxalq səsverməsi başlayıb. Xatırladaq ki, seçki məntəqələrində proseslərin bütünlüklə izlənilməsi məqsədilə bütün ölkə coğrafiyasını əhatə edən 119 seçki dairəsi üzrə 1000 seçki məntəqəsində (təqribən 20%) veb-kamera quraşdırılıb. Prezident də səsvermədə iştirak etdi: Səsvermə prosesinin başladığı ilk dəqiqələrdən Bakı şəhərinin 29 saylı Səbail seçki dairəsinin 6 nömrəli orta məktəbdə yerləşən 6 saylı seçki məntəqəsində xüsusi canlanma müşahidə olunub. Azərbaycan Prezidenti İlham Əliyev xanımı Mehriban Əliyeva və ailə üzvləri ilə birlikdə seçki məntəqəsinə gəlib. Prezident İlham Əliyev seçki məntəqəsinə daxil olub səsvermə bülletenini alaraq kabinəyə keçib və sonra bülleteni qutuya salıb. Bu anı respublikamızın və xarici ölkələrin mətbuat orqanlarının, televiziya kanallarının nümayəndələri izlədyiblər. Sonra birinci xanım Mehriban Əliyeva və ailə üzvləri səs veriblər. Azərbaycan Milli Məclisinin sədri Oqtay Əsədov da referendumda səsvermə hüququndan istifadə edib. Spiker 23 saylı Nəsimi-Səbail seçki dairəsinin 22 saylı məntəqəsinə gəlib. O.Əsədov Bakının 7 saylı məktəbində yerləşən seçki məntəqəsində səs verib. Spiker bildirib ki, bu səsvermə bir yoxlamadır. "Bu referendum ölkənin gələcək inkişafını təmin edəcək. Səsvermə prosesi yüksək səviyyədə gedir və inanıram ki, günün axırına bu referendumda öz əksini tapan dəyişiklər tam halda qəbul olunacaq". Baş naziri Artur Rasizadə isə 16 saylı Yasamal II Seçki Dairəsinin 29 saylı seçki məntəqəsində səsvermə hüququndan istifadə edib.




# Süleyman Zeynalabdin oğlu Abbasov

***Polkovnik Süleyman Zeynalabdin oğlu Abbasov ömrünü hərbiyə, vətənə, onun torpağına, millətinə, sonsuz məhəbbətlə həsr edən, əsl vətəndaşdır. Qeyd edək ki, 1960-cı ildə o atıcılıq üzrə SSRi çempionu - birincisi olmuşdur. "Pravda" qəzetində onun haqqında, çempionat haqqında məqalə dərc olunmuşdur.***

Süleyman Abbasov hazırda ehtiyatda olan zabit kimi öz fəaliyyətini müharibə şəraitində olan gənclərimizə hərbi hazırlığın bir növü olan tir atmağı öyrətməklə məşğuldur. O deyir ki: "Uşaqlıqdan idmanın bütün növlərinə böyük marağım var. Xüsusən də atıcılıq idmanına. Tüfəng atmağı çox sevirəm. Uşaq vaxtı ikiuclu ağaca rezin bağlayıb sapand düzəldər, sərçələri daşla vurub salardım. Atdığım daş boşa çıxmazdı. Sərçəni bir anda yerə sərərdi. Hədəfi düz nişan aldığıma sevinərdim.

Tələbəlik illərində də hərbi dərsə böyük maraq göstərərdim. Atıcılıq yarışını səbirsizliklə gözləyərdim. Tələbə yoldaşlarının içərisində qızlar, hətta oğlanlar arasında hədəfə nişan alıb atəş açmaqda yüksək xal toplayardım".

Süleyman Zeynalabdin oğlu Abbasov vətənimizin dilbər guşəsi Naxçıvanın Sədərək rayonunda dünyaya göz açmışdır. Orta məktəbi orada bitirib, hərbi xidmətə çağrılmışdır. Hərbi xidmət keçmiş Sovetlər İttifaqının paytaxtı Moskvada başa vurmuşdu. Hərbi işə olan sevgi onu hərbi məktəbdə saxlayır, orada rota komandiri kimi çalışır, daha sonra batalyon komandiri olur. 1067-ci ildə Azərbaycan Könüllü Hərbi Texniki İdman Cəmiyyətinin Naxçıvan şöbəsində işləyir.



Daha sonra Bakı şəhərinə qayıdır. Onu Bakı şəhəri üzrə Səyyar Tirin müdiri təyin edirlər. Müharibə şəratində olan vətənimizin övladlarında hərbi vətənpərvərlik hissləri aşılanmalıdır. Ordu sıralanna hazırlıq, atıcılıq silahları ilə davranmağı, silahlardan atəş açmağı öyrənmək lazımdır. Ölkəmizin nəinki oğlanları, hətta qızları da silahdan istifadə etməyi bacarmalıdır.

Elə bu məqsədlə də Azərbaycan Respublikası KHVTİC Bakı şəhər şurası Bakı şəhərində Səyyar Tir təşkil etmişdir. Bu iş ehtiyatda olan polkovnik S.Z. Abbasova tapşırılmışdır.

Alman faşizmi üzərində qələbənin 61-ci il dönümü münasibəti ilə Azərbaycan KHTVİC-i Bakı şəhər şurası Səyyar Pnevmatik Tiri Nizami rayon Veteranlar Şurasına verir. Tirin təlimatçısı isə S. Abbasov təyin edilir. O, bu məsuliyyətli işin öhdəsindən layiqincə gəlir. Odur ki, onun sinəsini bir çox orden və medallar bəzəyir. O indi də Tirə gələnləri meh-



ribanlıqla qarşılayır, pnevmatik silahdan istifadə etməyi bacarmayan gənclərə silahı necə tutmağı, hədəfi nişan almağı öyrədir. Bu gün Tirdə 6, 10, 12, 14, 61, 62, 70, 109, 129, 210, 220, 227, 242, 250, 251, 272, 328, və daha neçə neçə məktəblərin şagirdləri atıcılığın sirlərini öyrənirlər. Statistikaya görə 3800 şagird gəlib bu günə qədər. Bizə qalib gəmiş şagirdlərin şəkillərini, diplomlarını böyük fəxrlə göstərdi.

Süleyman Abbasova can sağlığı, işlərində uğurlar arzulayırıq.

# 20 - sentyabr Azərbaycanda Neftçilər Günü qeyd olunur

Bu gün Azərbaycan neftçiləri növbəti dəfə öz peşə bayramlarını - Neftçilər Gününü qeyd edirlər. Bu günün sentyabrın 20-də bayram edilməsi 1994-cü ildə Azəri-Çıraq-Günəşli' dəniz neft və qaz yataqları blokunun kəşfiyyatı və istismarı üzrə bağlanmış 'Əsrin müqaviləsinin imzalanması vaxtına uyğunlaşdırılıb.

Azərbaycanın neft-qaz sahəsinin dirçəlişinin başlanğıcıdır. Nəticədə, neft-qaz sahəsinin aktiv inkişafı respublika həyatının bütün sahələrinin artımına gətirib çıxardı.

Bu müqaviləni haqlı olaraq ümummilli lider Heydər Əliyevin banisi olduğu Azərbaycanın energetika strategiyasının əsas ten-





Bu gün Azərbaycan neftçiləri növbəti dəfə öz peşə bayramlarını - Neftçilər Gününü qeyd edirlər. Bu günün sentyabrın 20-də bayram edilməsi 1994-cü ildə "Azəri-Çıraq-Günəşli" dəniz neft və qaz yataqları blokunun kəşfiyyatı və istismarı üzrə bağlanmış "Əsrin müqaviləsi"nin imzalanması vaxtına uyğunlaşdırılıb.

Bu müqavilənin imzalanması densiyasını müəyyən edən və Azərbaycanı dünyanın neft ixracatçılarından birinə çevirən özül hesab etmək olar.

Bu il daha bir əlamətdar gün - neft ölkəsi mövqeyi ilə yanaşı, böyük qaz ehtiyatlarına malik bir ölkə kimi Azərbaycanın statusunu möhkəmləndirən "Şahdəniz" iri qaz-kondensat yatağının kəşfinin 15 illiyi də qeyd olunur. Bu status ötən il Xəzər dənizində "Ümid" qaz-kondensat yatağının, həmçinin bu yaxınlarda "Abşeron" yatağında iri qaz ehtiyatlarının kəşf edilməsi ilə təsdiq edilib.

Azərbaycan bundan sonra da qaz ölkəsi kimi öz mövqelərini möhkəmləndirmək niyyətindədir. Bu baxımdan Almaniyanın RWE şirkəti ilə birgə "Babək", "Şəfəq-Asiman", "Naxçıvan" perspektiv strukturlarının kəşfiyyatı və istismarı planları mövcuddur.

Bu gün Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) dünya enerji bazarının aktiv iştirakçısına çevrilir. ARDNŞ-nin bölmələri neft ticarəti, həmçinin neft məhsullarının distribusiyası sahəsində öz yerini tutmaq üçün fəal işlər görür. Xüsusilə də hazırda ARDNŞ-nin Azərbaycan, Gürcüstan, Ukraynada yanacaqdoldurma məntəqələri var, eyni zamanda, Rumıniya və İsveçrədə YDM-lərin açılması üçün iş aparılır.

İri regional layihələrdə iştirak üçün fəal işlər görülür. Xüsusilə, ARDNŞ "Pektim" iri neft-kimya kompleksində iştirak payına malikdir, bu kompleksin xammala olan ehtiyacını ödəmək məqsədilə Türkiyədə neft emalı zavodunun tikintisi ilə bağlı planları var. Həmçinin, ARDNŞ Odessa-Brodı-Plosk-Qdansk neft kəmərinin tikintisi layihəsinin iştirakçısıdır.

Neftçilər ölkə daxilində də fəal işlər görürlər. Xüsusən, neft-qaz emalı və neft-kimya məhsullarının istehsalı üzrə yeni kompleksin yaradılması layihəsi həyata keçirilir, respublikanın kimya sektorunun modernləşdirilməsi istiqamətində aktiv addımlar atılır, respublikanın bütün rayonlarının qazlaşdırılmasının yaxşılaşdırılması üçün müxtəlif infrastruktur layihələr həyata keçirilir.

Qeyd edək ki, Bakı neftçiləri II Dünya müharibəsində qələbənin təminatçısı olmuşdurlar. Onlar döyüşən cəbhəni yanacaqla təmin etmiş, arxa cəbhədəki fədakarlıqları ilə seçilmişdirlər. Bakı neftçiləri tarixin çətin günlərində göstərdikləri rəşadət və hünərlə adlarını tarixin səhifələrinə qızıl hərflərlə yazmışdırlar.

# 396-cı ATICI DİVİZİYA

396-cı milli Azərbaycan atıcı diviziyası 1941 -1942-ci illər Kerç-Feodosiya əməliyyatında qəhrəmancasına iştirak etmişdir. 1941-ci il dekabrm 25-dən 1942-ci il yanvarın 2-nə qədər Zaqafqaziya (1941-ci ilin dekabrından Qafqaz) Cəbhəsi, Qara dəniz və Azov hərbi donanmalarının birgə qüvvələri ilə keçirilən əməliyyatın məqsədi Kerç yarımadasının almanlardan təmizlənməsi və Krımın azad edilməsi idi.

Kerç yarımadasında almanların 25 minlik qruplaşması yerləşirdi: 11-ci ordunun 42-ci ordu korpusunun 46-cı piyada diviziyası və onu dəstəkləyən hissə və qüvvələr. Almanlar yarımadada çoxsaylı dayaq məntəqələri yaratmışlar. Feodosiya şəhər və limanı olduqca güclü müdafiəyə hazırlaşdırılmışdır.

Kerç-Feodosiya desant əməliyyatının keçirilməsinə Sovet qoşunlarının 44-cü (komandan general-mayor *A.N.Pervişin) və 51-ci (komandan general-leytenant V.N.Lvov) orduları cəlb edilirdi. Cəmi əməliyyatda 6 atıcı diviziya, 2 atıcı briqada, 2 dağ-atıcı alayı tərkibində 42 min əsgər və zabit, 454 top və minaatan, 43 tank və cəbhə aviasiyasının 500 təyyarəsi iştirak etməli idi. Desantların çıxarılması Qara dəniz (komandan vitse-admiral S.Q.Qorşkov) hərbi dəniz donanmasının 250-dən artıq gəmilərinə həvalə edilirdi. Əməliyyata Zaqafqaziya cəbhəsinin komandanı D.T.Kozlov başçılıq edirdi.

Plana əsasən eyni zamanda Kerç rayonu və Feodosiya limanına desantlar çıxarılmalı, alman faşist ordusunun Kerç qruplaşması mühasirəyə alınıb məhv edilməli idi. Daha sonra əməliyyat davam edilməli, qoşunlar yarımadanın mərkəzinə doğru irəliləməli, Sevastopol müdafiə rayonunun qoşunlarını blokadadan çıxarılmalı və Krımı azad etməli idi. Əməliyyatın keçirilməsində vacib rolu 396-cı milli Azərbaycan atıcı diviziyası oynamalı idi.

Tufanlı hava və düşmənin güclü müqavimətinə baxmayaraq diviziya Kerç yarımadasında Feodosiya limanına atılmışdır. Maskalanma tədbirlərinə baxmayaraq, almanlar göyərtəsində 396-cı atıcı divziyanın şəxsi heyəti olan gəmiləri əvvəlcədən görmüşlər. Almanların projektor qurğuları mütəmadi olaraq işə salmır və desant gəmirələrinə atəş açılırdı. Bir neçə xırda gəmi batırılmış, desantın ilk itkiləri olmuşdur. Desantın ön dəstəsində diviziyanın komandir və komissarı da var idi. Düşmənin top və pulemyot atəşlərinə desantçılar avtomat və pulemyotların atəşi ilə cavab verirdilər. Sahilə 200 metr qalmış gəmilər dayanmalı oldu, çünki onların korpusları dərin hövzələrdə üzmək üçün nəzərdə tutulmamışdır. Nəticədə döyüşçülər suya tullanıb piyada halda sahilə doğru irəliləməyə başladılar. Bu, desant çıxarılmanın sürətini azaldırdı. Bütün çətinliklərə baxmayaraq diviziya yarımadada platsdarın tutumağa müvəffəq oldu. Sovet qoşunları Kerç yarımadasının şimal-şərq sahili və Feodosiya limanından yarımadanın dərinliklərinə doğru irəliləməyə çalışırdılar. 1941-ci il dekabrın 29-da 44-cü ordunun hissələri Feodosiya limanını tutdular. 1942-ci ilin yanvar ayının 2-nə Qafqaz cəbhəsinin qoşunları Kerç yarımadasıın düşməndən təmizlədilər. Kerç-Feodosiya desant əməliyyatının nəticəsində sovet qoşunları düşmənin Kerç qruplaşmasını məğlub etmiş, düşmən qüvvələrinin bir hissəsini Sevastopoldan özlərinə tərəf cəlb etmiş, almanlarm Taman yarımadası vasitəsilə Qafqaza soxulması ehtimalı blokadada olan sovet qoşunlarının vəziyyətini yüngülləşdirdi. Bir neç ay ərzində düşmən öz qoşunlarını Sevastopol ilə Kerç arasında yaymağa məcbur olmuşdur.

1942-ci ilin may ayının əvvəlində almanlar Krımın şərq hissəsində 8 diviziya toplamış və onların vasitəsi ilə sovet qoşunları Kerç yarımadasından vurub sıxmaq, sonra isə Sevastopola hücum etməyi planlaşdırmışdır. May ayının 8-də sübh tezdən almanların hücumu başlamış və həmin günün axşamına almanlar cəbhəni yarmışlar. Sovet qoşunları Eltigen və Qamış-Burun istiqamətində geri çəkilməyə məcbur oldular. Mayın 15-nə Sovet qoşunları Kerç yarımadasını tərk etməyə məcbur oldular. Krım cəbhəsinin qoşunları və onların tərkibində olan 396-cı atıcı diviziyanm hissələri, arxa qoşunlar, Qara dəniz donanmanın gəmi və təyyarələrinin müşayəti ilə Taman yarımadasına evakuasiya olunmağa başladılar. Olduqca ağır şəraitdə keçən evakuasiya mayın 20-nədək davam etdi. Bizim qoşunlar, o cümlədən 396-cı atıcı diviziya düşmən aviasiyasının zərbələrindən böyük itkilərə məruz qaldılar.



Döyüşçülərimizin rəşadət nümunəsi olan Kerç-Feodosiya əməliyyatı Böyük Vətən müharibəsində sovet qoşunlarının keçirdiyi ən iri desant əməliyyatı kimi tarixə düşüb. Ağır şəraitdə cəsarət və hünər göstərən döyüşçülərimizə eşq olsun!

*Camal Qəhramanov*
*Respublika Veteranlar Təşkilatının əməkdaşı*

# 95 yaşlı veteran Şalbuz Səmədov



Get-gedə sıraları azalan müharibə iştirakçılarından Quba rayonunun Amsar kənd sakini, 95 yaşlı Şalbuz Səmədov və Ərməki kəndində yaşayan 92 yaşlı Sultanməcid Musayevlə görüşdük. Şalbuz Səmədov 1921-ci ilin iyunun 30-da Amsar kəndində anadan olub. Gənc yaşlarında ata və anasını itirib. Orta məktəbi bitirdikdən sonra 1941-ci ilin dekabrında hərbi xidmətə çağırılıb. Şərəfli döyüş yolu keçən S. Səmədovla birlikdə həmkəndliləri Əmi Babayev, Əlimustafa Əzizov da iştirak edib.

Müharibə veteranı, Ərməki kənd sakini Sultanməcid Musayev bildirirdi ki, 18 yaşım yenicə tamam olmuşdu, əsgərliyə çağırdılar. Bir müddət Gürcüstanda hazırlıq kursu keçdik, sonra Orconikidze, Rostov ətrafında gedən döyüşlərdə iştirak etdim. Şimali Qafqaz müharibənin taleyini həll edən gərgin cəbhə xətti sayılırdı. Düşmənin ən güclü ordusu, texnikası buraya yönəldilmişdi. Məqsəd Bakını ələ keçirmək idi. Lakin minlərlə insanın qanı bahasına olsa da düşmən geri oturduldu. Mənimlə birlikdə kəndimizdən İsmayıl, Əhliman, Qardaşalı da döyüşürdü. 1944-cü ildə isə Rostov ətrafında gedən ağır döyüşlərin birində yaralandıqdan sonra ordudan tərxis olundum.

Sultanməcid kişinin bu yaxınlarda iki nəvəsi ordudan qayıdıb. Bugünkü hadisələrə öz münasibətini bildirən Sultanməcid kişi dedi:

- Ulu öndər Heydər Əliyev həmişə veteranlara qayğı və diqqət göstərib. Bizi cəmiyyətin qızıl fondu adlandırıb. Bu gün həmin siyasət ölkə başçısı İlham Əliyev tərəfindən davam etdirilir. Hər il veteranlarımız və onların dul qalmış həyat yoldaşları üçün vəsaitlər ayrılır. Eyni zamanda müharibə veteranlarına minik maşını hədiyyə edilir. Mənə də bundan pay düşüb. Bütün bunlara görə ölkə başçısına minnətdarlığımı bildirirəm.

Ağsaqqalla söhbətimizi çay süfrəsi ətrafında davam etdirdik. Həmsöhbətimizin yaşı 95-i haqlasa da olduqca sağlam və gümrah görünürdü. Biz sual verdikcə, o, aram-aram cavab verirdi.

Müharibədən sonra Şalbuz kişi bir müddət Orconikidze kolxozunda aqronom-entemoloq, Amsar-Palasada briqadir işləyib.

Şalbuz kişinin 6 övladı, 80-ə yaxın nəvə, nəticə və kötükçəsi vardır. Ömür-gün yoldaşı Fatma xanım 2001-ci ildə rəhmətə getdikdən sonra Şalbuz kişi üçün bir az çətinlik yaranıb. Söhbət zamanı o bildirdi ki, itirdiklərimin ətrini nəvələrimdən alıram. Sinəsini müxtəlif medallar bəzəyən Şalbuz kişi övladlarından çox razılıq edir. Oğlanlarından Qafil Səmədov polis mayorudur. Firuz isə elektrik şəbəkəsində çalışır. Sultanməcid kişi ermənilərin son təxribatına da münasibət bildirdi:

- Son vaxtlar erməni işğalçıları cəbhədə təxribatlar törədir, dinc əhaliyə ziyan vururlar. Atalar yaxşı deyib: “Nahaq qan yerdə qalmaz”. İnanıram ki, torpaqlarımız işğaldan azad olunacaq, üçrəngli bayrağımız Şuşada, Xankəndidə dalğalanacaq, inşallah, o günü biz də görəcəyik!

Veteran qeyd etdi ki, 9 may münasibəti ilə veteranlarla Respublika Müharibə, Əmək, Silahlı Qüvvələr Veteranları Təşkilatı Quba rayon təşkilatında görüş keçirmiş, onlara hədiyyələr təqdim edilmişdir.

***AKİF ƏLİYEV***

# Sumqayıtın müharibə veteranı, fəxrimiz Abbasov İslam Qara oğlu



Abbasov İslam Qara oğlu 1924-cü il sentyabrın 16-da Tovuz rayonunun Eyyublu kəndində anadan olmuşdur. O, 1942-ci ildə ordu sıralarına çağırılmış Şimali Qafqazda alman faşizminə qarşı döyüşlərdə yaralanaraq Qori şəhərində müalicə aldıqdan sonra yenidən ön cəbhəyə qayıtmış, 1943-cü ildə 60 nəfər müharibə iştirakçısı ilə birlikdə İrana göndərilmiş 586-cı hərbi hissənin Müstəqil Avto-Nəqliyyat batalyonun tərkibində sürücü işləyərək Dövlət Müdafiə Komitəsinin xüsusi tapşırığına əsasən Amerika və İngiltərədən göndərilən yükləri İranın Vəndər şah şəhərindən götürüb Azərbaycana, Türkmənistana daşımışdır. 1945-ci ildə Müstəqil Avto Nəqliyyat Batalyonu İrandan Sovetlər ölkəsinə köçürüldükdən sonra 539-cu MANB -nin tərkibində Özbəkistan, Qırğızstan və Qazaxstanın müxtəlif şəhərlərinə yüklər aparmışdır. 1947-ci ildə ordu sıralarından tərxis olunduqdan sonra dogma vətəni Azərbaycana qayıtmış, yaşadığı Tovuz şəhərində “Fəhlə-gənclər” orta məktəbinə daxil olmuş 1954-cü ildə oranı “Qızıl medalla” bitirmiş və həmin ildə Azərbaycan Sənaye İnstitutunun Neft-Mədən fakültəsinə daxil olmuş və 1959-cu ildə həmin İnstitutu fərqlənmə diplomu ilə bitirmiş və tale onu gənclik şəhəri ilan Sumqayıta bağlamışdır.

O, bir müddət “Neftkimyaavtomat” elmi tədqiqat layihə İnstitutunda texnik, mühəndis və şöbə müdiri vəzifələrində işləmişdir. İslam müəllim 1962 -ildən 1970-ci ildək Azərbaycan Neft və Kimya İnstitutunun Sumqayıt filialının əvvəlcə ilk direktoru , sonra isə rektoru vəzifəsində çalışmışdır. İndiki Sumqayıt Dövlət Universtetində 9 il rəhbər vəzifəsində olmuş Filialın formalaşmasında, inkişaf etdirilməsində, texniki təhsil bazasının genişləndirilməsində , tədris prosesindəki nizam-intizam qaydalarının möhkəmləndirilməsində göstərdiyi xidmətlər dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. 1968-ci ildə Filialın birinci buraxılışında şəhərin Səməd Vurğun adına mədəniyyət evində 200-ə yaxın tələbəyə İslam müəllim ali təhsil diplomu vermişdi. İndi həmin mütəxəssislər şəhərin müxtəlif təşkilatlarında, zavodlarında direktor, prorektor, elmi işçi, layihə rəhbəri kimi vəzifələrdə çalışırlar. İslam müəllimin qəzet və jurnallarda 20-dən çox elmi məqaləsi nəşr olunub. 1970-ci ildə Qroznıy şəhərindəki Neft İnstitutunda dissertasiya müdafiə edərək texnika elmlər namizədi - alimlik dərəcəsi almışdır. Sonra 2 il “Azkimyatikintiqurаşdırma” trestində müdir müavini, 1972-ci ildən isə 20 il Sumqayıtda “Neftqazavtomat” EİB-də böyük mühəndis, bölmə müdiri, baş elmi işçi vəzifələrində çalışmışdır. 1992-ci ildən “Xəzər” Səhimdar Cəmiyyətində Baş direktorun kadr və sosial məsələləri üzrə müavini olmuşdur. İnstitutda oxudugu və işlədiyi dövrlərdə ilk partiya təşkilatının katibi., Həmkərlar təşkilatının sədri, Komsomol Komitəsinin sədri kimi ictimai vəzifələr aparıb. 1957-ci ildə 3-cü kurs tələbəsi olarkən 6-cı çağırış Bakı şəhəri Dzerjinski rayon sovetinə Deputat seçilmiş , 1960-62-ci illərdə “Neftkimyaavtomat” ETLİ-də ilk partiya təşkilatı katibi işləmişdir. 1965-ci ildə Sumqayıt şəhər sovetinə Deputat və şəhər partiya komitəsinə üzv seçilmiş və 4 il şəhər “Bilik” Cəmiyyətinin sədri olmuşdur.

SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanları ilə təltif olunmuşdur:

1.1941-1945 -ci illərdə Almaniya üzərində “Qələbə medalı”

2.Ukrayna üzərində “Qələbə medalı”

3.Qafqaz üzərində “Medalı”

4.Qələbənin 20,25,30,40 illiyi “Yubiley medalları”

5.Azərbaycan Respublikasının Prezidenti, Ulu öndər Heydər Əliyevin sərəncamı ilə “ 1941-45 ci illər “Müharibə Veteranı” nişanı ilə

6.Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2005-ci il 27 aprel sərəncamı ilə “ 1941-45-ci illərdə Qələbənin 60 illiyi” yubiley medalı ilə

7.Ukrayna Prezidenti A.Kuçmanın 17 aprel 2004-cü il tarixli sərəncamı ilə 1941-1945-ci illərdə “Qələbənin 60 illiyi” yubiley medalı ilə təltif olunub.

Hal-hazırda Sumqayıt şəhər Veteranlar Təşkilatının üzvüdür.

***LEYLA QASIMZADƏ***
*Sumqayıt şəhər Veteranlar Təşkilatının sədri*

# БЕССМЕРТНЫЙ ПОДВИГ НАРОДА

***Общенациональный лидер Азербайджана Г. А. Алиев о Победе в Великой Отечественной войне 1941-1945 годов и патриотизме народа***

Вторая мировая война была самой страшной войной в истории человечества. Во Второй мировой войне многие народы Европы, народы бывшего Советского Союза, в том числе и азербайджанский народ, поднялись на борьбу с германским фашизмом.

Война была тяжелой и она принесла большие потери, нанесла тяжелый удар многим странам, народам, в том числе и азербайджанскому народу. Эта борьба против германского фашизма завершилась победой прогрессивных сил. Советский Союз сыграл особую роль в этой войне, в уничтожении фашизма, в достижении победы. Мы с удовлетворением отмечаем большое значение Союза ССР, Соединенных Штатов Америки и Великобритании. Но после захвата большей части Европы германский фашизм, гитлеровские войска все свои силы направили против СССР. Поэтому самое большое сопротивление германскому фашизму и самые страшные, кровавые бои проходили именно на территории Советского Союза, к которому в те годы принадлежали и мы.

Отмечая заслуги тогдашнего великого Союза, мы в то же время должны особо отметить и героизм, отвагу Советской Армии, советского народа, каждого народа, входившего в Советский Союз. Азербайджан тоже внес свою долю в эту войну - Великую Отечественную войну Героические сыны Азербайджана воевали, сражались и погибали. В то время около 600 тысяч наших граждан пошли на фронт и сражались. Примерно 300 тысяч из них не вернулись, отдали свои жизни ради победы над немецким фашизмом. Лучшие представители, отважные сыны и дочери азербайджанского народа, показали в этих боях примеры большого героизма.

В то время поднялся весь Азербайджан. Часть его граждан сражались на фронте, другая часть - на территории республики, день и ночь трудились в тылу во имя победы, проявляя самоотверженность. Героические, отважные сыны азербайджанского народа отличились в этой войне, проявляя образцы героизма, были удостоены высоких званий, звания Героя Советского Союза, награждены орденами и медалями Советского Союза. Среди них были и такие, кто, добившись победы, вернулся на Родину, но были и такие, кто героически погиб... Мы чтим память всех героических сынов и дочерей азербайджанского народа, всех героев, отдавших свои жизни во имя победы.

Сегодня праздник, праздник Победы 9 мая 1945 года.



Мы помним тот день. Ветераны помнят, каким дорогим был тот день для всех народов мира, для нас. В те годы мы ждали этого дня, и он настал: 9 мая 1945 года. Я помню, как радовались люди в тот день. Мы не забываем тот день, гордимся и каждый год празднуем его.

Участие Азербайджана во Второй мировой войне, великой Отечественной войне, во-первых, заключалось в том, что азербайджанские граждане, отважные сыны азербайджанского народа сражались на войне против германского фашизма, проявляли образцы героизма. Во-вторых, Азербайджан был самой важной частью Советского Союза в деле достижения победы, так как он поставлял фронту более 70 процентов нефти, добываемой тогда в Советском Союзе.

Если бы не нефть Азербайджана, то победить в этой войне было бы очень трудно и многие специалисты-историки говорят, что, может быть, даже победить было бы невозможно.

Не случайно, что в плане Гитлера первое место занимал захват Кавказа и, в частности, Баку. В 1942-1943 годах гитлеровская армия все силы бросила на юг, на захват территории вокруг Каспийского моря, Кавказа, и в особенности Баку. Но наша Советская героическая армия, предотвратила это.

В те годы азербайджанские нефтяники в тяжелых условиях, можно сказать, полностью отрезанные от севера, день и ночь самоотверженно трудились и посылали на фронт нефть. Железная дорога была закрыта, и нефть по Каспийскому морю поставлялась на другой берег - в Среднюю Азию, а оттуда разными средствами - на фронт.



Есть кинохроника: когда не хватало танкеров, самоотверженные люди шли на различные ухищрения, в том числе, заполняли нефтью чаны и, прикрепив несколько чанов к судну, волоком тянули к другому берегу. В нашем архиве есть такие фотографии, такая хроника.

Но не только нефть, в то время в Азербайджане приступили к производству оружия, велась другая работа. То есть, весь азербайджанский народ, все граждане Азербайджана на фронте и в тылу внесли достойный вклад в победу. Поэтому мы празднуем этот день с чувством большой гордости, имея на это моральное право.

Я еще раз склоняю голову перед сыновьями и дочерьми Азербайджана, ставшими шехидами в Великой Отечественной войне. Да упокоит Аллах их души. Я склоняю голову перед нашими отважными сыновьями, ставшими шехидами, защищая азербайджанские земли от армянских агрессоров, и хочу еще раз выразить уверенность в том, что их шехидство является символом их преданности своему народу, своей нации. Когда азербайджанские земли будут освобождены, территория Азербайджана будет восстановлена, их героизм, конечно же, получит еще более высокую оценку.

Наш народ отмечает праздник Победы с чувством гордости, так как азербайджанский народ внес огромный вклад в достижение этой победы. Наши ветераны, ветераны Второй мировой войны, ветераны Великой Отечественной войны и сегодня принимают активное участие в общественно-политической жизни Азербайджана, вносят свой вклад и передают молодому поколению свой опыт, активно участвуют в деле воспитания молодого поколения в духе патриотизма. Благодарю вас за все это, дорогие ветераны. Можете быть уверены, что азербайджанский народ, независимое Азербайджанское государство никогда не забудет ваших заслуг. Сегодня каждый из вас является для нас, для молодого поколения примером подлинного героизма...

Можете быть уверены в том, что Азербайджанское государство всегда будет оберегать независимость, суверенитет Азербайджана, свободу нашего народа и, продвигаясь по пути независимости, по пути демократии, азербайджанский народ будет добиваться новых и новых успехов.

**Из книги "Победа и память"**

# 97 гражданам присвоено звание "Ветеран труда"

За прошедший период текущего года Министерством труда и социальной защиты населения (МТСЗН) 97 гражданам присвоено звание и вручено удостоверение "Ветерана труда". 23 обладателя почетного звания являются представительницами прекрасного пола. В соответствии с положением "О порядке и условиях присвоения званий ветерана войны, ветерана Вооруженных сил и ветерана труда", утвержденным постановлением Кабинета министров Азербайджанской Республики от 22 сентября 1995 года под номером 216, звание ветерана труда и удостоверение ветерана присваивается центральными органами исполнительной власти гражданам, которые в соответствии с законодательством получили право на пенсию по возрасту и занимающиеся общественным трудом на протяжении долгих лет (при наличии трудового стажа более 40 лет для мужчин и более 30 лет для женщин).

Заявление и иные необходимые документы предоставляются на рассмотрение в создаваемые в исполнительных органах комиссии по отнесенности, и на основании заключения комиссии принимается соответствующее решение. В иных случаях, не предусмотренных настоящим Положением (если предприятие ликвидировано, местом работы является негосударственное предприятие и т.д.), звание "Ветеран труда" и удостоверение присваивается МТСЗН Азербайджанской Республики.



Расходы на изготовление удостоверения покрываются за счет исполнительных органов, которые выдают такое удостоверение.

Перечень необходимых документов для этой процедуры представлены на официальном веб-сайте МТСЗН (www.mlspp.gov.az) в разделе "Деятельность и услуги".

## В АЗЕРБАЙДЖАНЕ ВЕТЕРАН ВЕЛИКОЙ ОТЕЧЕСТВЕННОЙ ВОЙНЫ ОТМЕТИЛ 90-ЛЕТИЕ

Каждый человек заслуживает внимания. Но есть категория людей, которой надо уделять больше заботы и внимания. Это ветераны войн. Их с каждым годом становится все меньше и меньше. Они заслуживают это потому, что в трудную минуту для родины они встали на ее защиту. Особенно мало осталось ветеранов Великой Отечественной войны 1941-45 годов.

Сегодня их в древней Гяндже проживают единицы, на пальцах одной руки можно сосчитать. Сегодня мы хотим рассказать об одном из них, ветеране ВОВ и Вооруженных Сил, подполковнике в отставке Петре Ефремовиче Харченко. Одним из поводов написать о нем является его 90-летие. В день его рождения, у него в гостях побывали члены правления Русской общины г.Гянджи и Западного региона Ирина Калашникова , редактор городской газеты "Новости Гянджи" Татьяна Орлинская и автор этих строк. Юбиляр и его супруга Галина Викторовна встретили гостей хлебом и солью.

Во время беседы, Петр Ефремович познакомил нас с некоторыми моментами из своей жизни.

Он родился в 1926 году в Казахстане. В школьные годы родители переехали в Киргизию, где участвовали в народной стройке - Туркестанско-Сибирской магистрале. После гибели своего брата на войне, Петр написал заявление на его отправку на фронт, хотя с его возрастом уже не брали на фронт. Но он своего добился в начале 1945 года. Он прошел курсы штурмана в Казане и был отправлен в 9-й запасной авиационный полк пикирующих бомбардировщиков СБ-51. Участвовал в вылетах на бомбардировку Берлина и скопление эсесовцев в Чехословакии. После победы над фашистской Германией он до 1947 года служил в Венгрии. Затем несколько лет преподавал в военном училище Мелитополя. Оттуда был послан на продолжение службы на Камчатку. А уже оттуда в 1958 году был переведен в Гянджу. Военная служба Петра Ефремовича продолжалась до 1972 года. После сокращения офицерского состава ВС СССР, он в звании подполковника был отправлен в отставку.



А до этого, по словам ветерана, он успел полетать на транспортных военных самолетах, возил специальные грузы для космодрома "Байканур", был знаком с космонавтами Г.Титовым и В.Терешковой. Затем, как опытного летчика его послали выполнять интернациональный долг в Чехословакию, Монголию, Вьетнам, Лаос, Камбоджу, Таиланд.

Он был удостоен звания Почетного гражданина Вьетнама. Кстати, у Петра Ефимовича - немало наград, в том числе ордена Боевого Красного Знамени, Красной Звезды, Отечественной войны, медалей.

Во время беседы узнали, что Петр Ефремович нашел свою вторую половинку - супругу Галину Викторовну на азербайджанской земле. Здесь у них родились дети - их четверо. Правда, жизнь их разбросала в различные уголки России и Украины.

Дети, по возможности, посещают свои родителей, да и родители едут к ним, чтобы их повидать детей и внуков.

Несмотря на возраст, пережитые годы, ветеран бодр и весел. Кстати, прилично пишет стихи. Вот только, почти два года из - за болезни глаз, стал не видеть.

- Гянджа, моя вторая родина, здесь я нашел свою любовь, здесь родились дети,- говорит Петр Ефремович. У нас много друзей, добрые соседи, которые нас поддерживают. Я очень счастлив и благодарен своей судьбе, супруге, что живу. В день 90-летия Петру Ефремовичу были вручены поздравительное письмо, подарок, торт и алые розы от Русской общины города и Западного региона. Здоровья Вам, Петр Ефремович и долгих лет жизни.

*Фазиль Гулиев*

## Бакинские школьники поздравили ветерана Великой Отечественной войны Исмаила Касумова с днем рождения

Ветерану Великой Отечественной войны, фронтовому разведчику Касумову Исмаилу Касумовичу исполнилось 93 года.

Войну Исмаил Касумович встретил на Кавказе, а завершил в Берлине. За эти годы он был несколько раз ранен, но всегда возвращался на фронт. У ветерана более 40 наград, в том числе три ордена Отечественной войны, медаль "За отвагу", две - "За боевые заслуги".



Поздравить Исмаила Касумовича в Музей военной истории Азербайджанской Республики пришли учащиеся средней школы номер 27 города Баку со своим классным руководителем, учителем истории Мехрибан Кадашевой, и сотрудники Российского информационно-культурного центра в городе Баку.

Заместитель руководителя представительства Россотрудничества в Азербайджане Алексей Коннов поздравил Исмаила Касумова с днем рождения и пожелал ему и всем близким здоровья, благополучия и всех земных благ.

Ветеран поблагодарил за поздравление и еще раз рассказал о подвигах своих земляков - героев Великой Отечественной войны, о том, как ни щадя своей жизни, мужественно они сражались на полях войны, как верили в свою победу над врагом.



# Ürək xəstələri idman edə bilərmi?

***Mütəxəssislərin fikrincə, yüksək səviyyədə keçirilən idmanlar xüsusilə ürək xəstələrində ani ürək dayanmasına səbəb ola bilər.***

Qaçış, xüsusilə səhər keçirildiyi zaman, axşam infarkt keçirmək riskini daha çox artırır, çünki infarkta qarşı bədənin ən həssas olduğu saatlar 06.00 və 08.00 saatları arasıdır. İnfarktlar bu saatlarda daha tez-tez olur. 06.00 və 08.00 saatları arasında gəzmək məsləhət görülür, lakin qaçmaq yox.

İnsanların, xüsusilə 40 yaşdan sonra, mütləq şəkildə ağır idmanlardan uzaq durmasını vurğulayan mütəxəssislər, bu mövzu barədə ətraflı məlumat veriblər: "40 yaşdan sonra idman edənlərin ağır idmandan uzaq durmalıdırlar. Gəzmək və ya sürətli yeriş ola bilər.

İnsan, məsələn, həftədə ən az 4 gün, gündə 45 dəqiqə yeriməlidir. Ancaq temp səviyyəsini keçməməlidir. Gəzinti şəklində keçirilən yürüşlər idmanı əvəzləməz. Xüsusilə, ürək xəstələri üçün yüksək səviyyədə keçirilən məşqlər ani ürək dayanmasına səbəb olar. Ağırlıq qaldırmaq kimi məşqlər ürək üçün çox zərərlidir.



***Unutqanlıq yaş artdıqca, özünü göstərir. Antioksidant səviyyəsi ən yüksək meyvə olan qaragilə və Omega 3 yağ turşuları ilə beyini qidalandıran alabalıq balığı yaddaşı gücləndirir.***

## Unutqanlıqla mübarizə üçün nə etmək lazımdır?

Günümüzdə dərhal hər kəsin ağzına dolanan unutqanlıq və stress əsəb pozuntusu və səhv qidalanmanın nəticəsində ortaya çıxır. Yaşlı insanlar qruplarında özünü daha çox büruzə verən bu xəstəlik gündəlik həyatı da məhdudlaşdırır.

Ekspertlər isə dövrün ən böyük xəstəliklərindən biri olan unutqanlıq üçün doğru qidaların istehlak edilməsini bildirərək təkliflər verirlər:

Qaragilə - aparılan araşdırmalar bu meyvənin beyni oksidatif stressə qarşı qoruyaraq yaşa bağlı unutqanlığı ləngitdiyini göstərir.

Nar suyu - antioksidant baxımından zəngin olan nar suyu, bədəndə olan və hüceyrə quruluşunu pozan sərbəst radikallara qarşı təsirli qorumanı təmin edir.

İspanaq - folik turşu və minerallar baxımından zəngin olan ispanaq yaddaşı inkişaf etdirir və unutqanlığı aradan qaldırır.



Pomidor - likopen, pomidorda olan güclü antioksidantdır. Demans inkişafına təkan verən sərbəst radikalların hüceyrə təxribatına qarşı qorumanı təmin edər.

# Böyrək daşlarını əridən möcüzəli ot

*Pol-pala otu çox güclü sidikqovucu, antiseptik və iltihabəleyhinə təsirə malikdir. Otun bu xüsusiyyətləri xalq təbabətində və ənənəvi tibdə çox geniş istifadə olunur.*

Pol-palanın əsas faydalı xüsusiyyəti ondan ibarətdir ki, bu ot böyrəklərdə olan urat daşlarını parçalayır və böyrəklərdən çıxardır. Bu səbəbdən bu otu hətta "skalpelsiz cərrah" adlandırırlar.

Həmçinin pol-pala hipertoniya (yüksək təzyiq), sistit (sidik kisəsinin iltihabı) zamanı əlavə müalicəvi vasitə kimi istifadə olunur, yaxşı ödqovucudur, immun sisteminə çox müsbət təsir edir, nəfəs yollarını selikdən və mikroblardan təmizləyir. Son zamanlar alimlər pol-palanın xərçəngəleyhinə xüsusiyyətlərini öyrənirlər.



Pol-pala orqanizmi şlaklardan, toksinlərdən, radionukleidlərdən, ağır metalların duzlarından təmizləyir.

Müalicəvi məqsədlərlə otun kökləri, otları və toxumları istifadə olunur. Pol-pala otu apteklərdə xırdalanmış şəkildə satılır.

Pol-pala diş emalına mənfi təsir edir və bu səbəbdən bu otdan hazırlanan dəmləmələri və müalicəvi çayları borucuqdan ("truboçka"dan) içmək lazımdır. Bu halda diş emalına olan mənfi təsir azalır. Dəmləməni içdikdən sonra ağzınızı su ilə yaxşı yaxalayın.

Pol-pala otundan dəmləmə resepti:

- 1 x.q. ot termosda 1 stəkan qaynar suda dəmləyin. 3 saatdan sonra yaxşı süzün və gün ərzində stəkanın 13 hissəsi olmaqla yeməkdən əvvəl 3 dəfə için. Böyrək daşı xəstəliyi zamanı dəmləməni 10 gün ərzində için, sonra 1-2 ay fasilə verin və müalicəni təkrarlayın.

Nəzərə almaq lazımdır ki, pol-pala yalnız urat daşlarına təsir edir, fosfat və oksalat daşlarına isə təsir etmir. Bu səbəbdən istifadə etdikdən əvvəl uroloqun müayinəsindən keçmək və lazım olan analizlər vermək lazımdır.

# Bunu yesəniz, xərçəngə tutula bilərsiniz

**Gündəlik yediyimiz qidaların çoxunun biz fərqində olmadan xərçəngin yaranmasına səbəb olur. Bəs bu qidalar hansılardır?**

*Mikrodalğalı sobada partlamış qarğıdalı*

Praktik olmasına baxmayaraq mikrodalğalı sobada partladılan qarğıdalı dənələri yüksək dərəcədə kanserogen ehtiva edir. Xüsusilə qadınlarda yumurtalıq, böyrək, qaraciyər kimi orqanlarda xərçəng riskini artırır.

*Rafinə edilmiş şəkər və meyvəli qazlı içkilər*

Rafinə edilmiş şəkər və şəkərli qidalar xərçəng hüceyrələrinin törəməsini artırır. Xüsusilə tortlar, pirojnalar, limonadlar və meyvə suları qadağan edilmiş qidalar siyahısında ilk sıralarda yer tutur.

*Kartof çipsi*

Ləzzətli olduqları qədər kalori ilə zəngin və trans yağ ehtiva edən çipslər ürək xəstəliklərindən tutmuş xərçəngə qədər bir çox xəstəliyin yaranmasına səbəb olur.

*İşlənmiş ağ un*

Rafinə edildikdən sonra işlənən ağ un qida dəyərini itirməsi ilə yanaşı, tərkibində zərərli kimyəvi maddələr saxlayır. Yalnız çəkinizin artmasını təmin edən bir qida olmaqla bərabər, xərçəng riskini də artırır.

*Pəhriz qidalar*

Xüsusilə tərkibində süni dadlandırıcılar olan pəhriz qidalarına əlavə rəng də qatıldığı üçün sağlamlıq baxımından zərərlidir.

*Süni dadlandırıcılar*

Şəkər istifadə etmirsinizsə, süni dadlandırıcılara müraciət edə bilərsiniz. Lakin bu dadlandırıcılar qan şəkərinə nəzarət etməyi çətinləşdirir və beyin şişlərinə səbəb olur.

*Spirtli içkilər*

Aparılan araşdırmalardan biri sübut edib ki, menopauzadan sonra gündə bir dəfə spirtli içki qəbul edən qadınların döş xərçənginə tutulma riski 30% çoxdur.

*İşlənmiş ət*

Kolbasa, vetçina, sosiska kimi ətlərin çoxu həddindən artıq duz və kimyəvi maddələr ehtiva edir. Araşdırmalardan biri sübut edib ki, nizamlı şəkildə bu qidaları yeyən insanların erkən ölüm riski 43% artır.

*Süni göllərdə yetişdirilən balıqlar*

Süni göllərdə yetişdirilib təbii qidalanmayan balıqlar bütün faydasını itirir. Onların yetişdirildiyi kimyəvi qidalar və antibiotiklər isə xərçəngə səbəb olur.

**Baş redaktor**
Ülvi İBRAHİMLİ
**Məsul katib**
Səidə ABDULLAYEVA

Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınıb.
**Təsisçi:** Azərbaycan Respublikası Veteranlar Təşkilatının Rəyasət Heyəti

"Azərbaycan Veteranı" qəzeti.
**VÖEN:** 1701285981
verilmə tarixi - 23.11.2011

**Ünvan:** Bakı şəhəri, Nərimanov rayonu, Kaveroçkin küçəsi, 34
**Əlaqə telefonu:** 012 440-21-08
**e-mail:** az.veteran@mail.ru
**Dövlət qeydiyyat nömrəsi** - 3486
**Dövlət qeydiyyat tarixi** - 19.10.2011

Qəzet ayda iki dəfə "Azərbaycan Veteranı" qəzetinin bilgisayar mərkəzində yığılır, səhifələnir və "Veteran Nəşriyyatı" mətbəəsində nəşr olunur.
Qiyməti 50 qəpik
Tiraj: 1250